# ƏNƏNƏVİ KİTABXANA VƏ YENİLƏŞƏN CƏMİYYƏT

***Şəfəq Fəxrəddin qızı Əliyeva***

*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Mərkəzi Elmi Kitabxana*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*redshafag@gmail.com*
*ORCID ID: 0000-0003-3633-0143*

***Açar sözlər:*** *elm, kitabxana, cəmiyyət, müasir texnologiya*
***Ключевые слова:*** *наука, библиотека, общество, современные технологии*
***Keywords:*** *science, library, society, modern technology*

**Xülasə:** Məqalədə Elm-Kitabxana və Cəmiyyətin qarşılıqlı əlaqəsi, Cəmiyyət və kitabxana təminatının əsas aspektləri, həmçinin kitabxanaların əsas problemlərindən bəhs olunur. Elmin, texnologiyanın sürətli inkişafı kitab və əlyazmaların əhəmiyyətini azaltmır, aktuallığına xələl gətirmir, əsas məsələ dəyişən tendensiyalara uyğunlaşmaq və kitablarla texnologiya arasında balans yaratmaqdan ibarətdir. Kitabxanalar fəaliyyətlərində bu amilləri nəzərə almalı və Elm-kitabxana və cəmiyyətin qarşılıqlı əlaqəsini əsas prioritet kimi qəbul etməlidirlər.

**Резюме:** В статье рассматривается взаимодействие науки, библиотеки и общества, основные аспекты обеспечения общества и библиотеки, а также основные проблемы библиотек. Стремительное развитие науки и техники не снижает значимости книг и рукописей, не вредит их востребованности, главное – адаптироваться к меняющимся тенденциям и создать баланс между книгами и технологиями. Библиотеки должны учитывать эти факторы в своей деятельности и рассматривать взаимодействие науки, библиотеки и общества как главный приоритет.

**Summary:** The article discusses the interaction of Science-Library and Society, the main aspects of Society and library provision, as well as the main problems of libraries. The rapid development of science and technology does not reduce the importance of books and manuscripts, does not harm their relevance, the main issue is to adapt to changing trends and create a balance between books and technology. Libraries should take these factors into account in their activities and consider the interaction of science, library and society as a top priority.

Kitabxana fərdlər arasında mütaliə vərdişinin aşılanmasına kömək edir, onları müxtəlif mövzular haqqında oxumağa həvəsləndirməklə, daha mədəni və hərtərəfli şəxsiyyət kimi formalaşmasına şərait yaradır. Kitabxanalar yalnız kitabların, jurnalların, audio-vizual materialların və rəqəmsal məlumat mənbələrinin xəzinəsi deyil, həm də insanların danışa bildiyi, sosiallaşa biləcəyi və kitab sevgisinin onları birləşdirdiyi yerlərdir. Bu mənada müasir dövrdə kitabxanalar təkcə mədəni və ədəbi irsin qoruyucusu kimi çıxış etmir, həm də dramatik tamaşalar, mühazirələr, seminarlar, rəsm sərgiləri və s. təşkil edir. Kitabxana daha sağlam bir mühit yaratmağa qadir olduğu üçün xüsusiyyətlərinə, müxtəlifliyinə, dəyərinə və xidmət sahəsinə görə cəmiyyətdə hərəkətverici qüvvəyə çevrilə bilər. Çünki vətəndaşların sosial vəziyyətindən asılı olmayaraq ancaq maariflənmiş vətəndaşlarla cəmiyyət inkişaf edə bilər. Vətəndaşların maariflənməsində isə kitabxanaların rolu danılmazdır, onlar fərdin təhsil inkişafına dəstək olmaqla bərabər, oxucuların axtardıqları mövzular haqqında məlumat almasını təmin edir, beləliklə, insanların həyata baxışını dəyişir. Bu zaman kitabxana həm də Biliklərin Qoruyucusu kimi çıxış edir. Kitabxana həm də gələcək nəsillərin keçmişlə bağlı araşdırma aparması

üçün məlumat təminatçısı olur, keçmişlə indiki etikanı birləşdirir. Tədqiqatçılar unikal və köhnə əl-yazmalar, qədim ədəbiyyat və s.-dən istifadə etməklə, tədqiqat obyektlərini müxtəlif aspektlərdən araşdıra bilirlər.

Kitabxanalar həm də Özünütərbiyə Mərkəzi kimi fəaliyyət göstərir: yaxşı məktəb, kollec və universitetlər inşa etməklə təhsili inkişaf etdirmək olmaz. Elmi inkişaf etdirmək, insanları bu istiqamətə yönəltmək üçün bunlar kifayət etmir. Elmli vətəndaşlar yetişdirmək güclü təhsil sistemi qurmaq və bu sistemdə əsas hərəkətverici qüvvələrdən biri kimi kitabxananın rolunu diqqətə çatdırmaq, səmərəli fəaliyyət göstərə bilməsi üçün müxtəlif qurumların dəstəyini təmin etmək lazımdır.

Kitabxanadan aldıqları bilik sayəsində oxucular müxtəlif mövzularla bağlı məlumatlar əldə edə bilirlər, kitabxana sosial və mədəni təşkilat kimi insanların asudə vaxtlarından səmərəli istifadə etməyə kömək edir, bəşəriyyətin mədəni və ədəbi irsinin qorunmasını təmin etməklə yanaşı, qeyri-rəsmi təhsil üçün imkanlar yaradır və bütün insanlar ömürlük – yaş məhdudiyyəti olmadan kitabxana xidmətindən istifadə edə bilər. Beləliklə, effektiv kitabxana xidməti hər bir cəmiyyətin vacib hissəsi olub, özünüinkişafa təlqin edir. Kitablar bilik verən müəllimlər kimi, həm özünü inkişaf etdirmək, həm də əxlaqi və sosial cəhətdən biliklər aşılamaq baxımından cəmiyyətin sosial və mədəni yüksəlişi üçün vacibdir. Cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi funksiyasını həyata keçirən təsisat kimi kitabxanalar həmçinin vətəndaş cəmiyyətinin formalaşmasında zəruri vasitə rolunu oynayır. Kitabxanaların informasiya resurslarının zaman və məkan məhdudiyyəti yoxdur. Digər tərəfdən, kitabxanalar mövcud sənədlərin saxlanc yeri olmaqla yanaşı, müasir texnologiyalar sayəsində informasiya dünyasına açılan qapı rolunu oynayır [1, s.3].

Elm inkişaf edir, dayanmadan yeni nailiyyətlər əldə edilir və sosial, texnoloji dəyişikliklər kitabxanadan da yan keçmir. Sosial qurum kimi kitabxanalar bu dəyişiklikləri qəbul etmək məcburiyyətindədir. Cəmiyyətdə sosial və siyasi qeyri-sabitlik, təhsil xidmətlərinin inkişafı və savadlılığın yüksəldilməsi, şəhər əhalisinin artması, qloballaşmanın cəmiyyətə təsiri, iqtisadi artım, kompüter texnologiyasının inkişafı və s. dəyişikliklər kitabxananın roluna birbaşa təsir edən amillərdir. Bu amillərin təsiri ilə dəyişən cəmiyyətdə əvvəlki nüfuz və mövqelərini saxlamaq üçün kitabxanaların rolu dəyişməli, xidmətləri genişlənməli, müasir kitabxanalar məlumat toplamaq, digər kitabxanalarla əlaqə saxlamaq və şəbəkə qurmaq üçün yeni texnologiyalarla təchiz edilməlidir. Çünki müasir dövrün şəbəkə sistemlərinin köməyi ilə lazımi informasiyanı istənilən anda əldə etmək mümkündür, yəni məlumat almaq üçün kitabxanaya getməyə ehtiyac yoxdur. Texnologiyadakı bu irəliləyiş kitabxanalarda da uğurla tətbiq edilir və oxucuya yalnız dəqiq məlumat əldə etməyə kömək etmir, eyni zamanda çox vaxta qənaət edir. Bu baxımdan son dövrlərdə kitabxanaların rolu xeyli təkmilləşmişdir. Digər tərəfdən isə rabitə vasitələrinin və kompüter texnologiyalarının inkişafı kitabxana işçiləri üçün böyük problem yaratmışdır. Kitabxanaçı təhsilli və istifadə edilən şəbəkə sistemi haqqında tam məlumatlı olmalıdır. Dəyişmiş və daha da təkmilləşmiş vəzifələrini səmərəli şəkildə yerinə yetirə bilməklə yanaşı, kitabxanaçılar bu dəyişiklikləri normal qəbul etməli və alqışlamalıdırlar. Elmin inkişafı nəticəsində dəyişən cəmiyyətin kitabxana və informasiya mərkəzlərinə təsiri, o cümlədən kitabxananın bütün funksiyaları cəmiyyətdəki dəyişikliklərə uyğunlaşdırılmalıdır. Müasir kitabxanalar artıq təbliğat üçün kitablara etibar etmirlər, əslində onlar kitabxanaların təklif etdiyi ənənəvi xidmətlərdən tamamilə fərqli olan kitabxana xidmətlərinə dəstək verən fəaliyyətlərə meyilli olmağa başlayıblar. Bu isə cəmiyyətin inkişaf tendensiyasına uyğun olaraq, normal qəbul edilir.

Elm və texnologiyanın inkişafının cəmiyyətə təsirini araşdıran Amerika yazıçısı, tədris üzrə ekspert Mark Prenski cəmiyyəti iki qrupa bölür. Onun sözlərinə görə birinci qrup rəqəmsal dünyanın immiqrantları, ikinci qrup isə rəqəmsal dünyanın yerli sakinlərindən ibarətdir. Birinci qrupa aid insanlar rəqəmsal dünyanın inkişafından əvvəl doğulan və sonradan buna məruz qalanlar, ikinci qrupun üzvləri isə həyat mərhələsinə uyğun olaraq, doğulduğu andan texnologiyanın bir hissəsinə çevrilənlərdir. Texnoloji yenilikləri çətin qavrayan, həyatın yeniliklərsiz də öz axarında gedəcəyini fikirləşən

birinci qrupdan fərqli olaraq, onlar müasir və yeni üsullardan rahatlıqla istifadə edir və bunun həyatlarının mühüm hissəsi olduğunu düşünürlər. Kitabxanalar isə dəyişən mühitdə cəmiyyətin hər iki qrupunun ehtiyaclarını ödəyə bilən sosial institut kimi davamlı olaraq səmərəli fəaliyyət göstərməlidir. Çünki texnologiyanın inkişafı aktuallığı pozmur və kitabxanada olan kitab və əlyazmaların əhəmiyyətini azaltmır, əsas məsələ dəyişən tendensiyalarla ayaqlaşa bilmək və kitablarla texnologiya arasında balans yaratmaqdan ibarətdir. Ənənəvi xidmət üsulunun daha rahat olduğunu düşünən oxucular əvvəlki qayda ilə istədikləri kitabı əldə edə bilirlər. Yenilikdən bəhrələnməyə çalışan oxucular isə kitabxananın təklif etdiyi bütün yeni xidmətlərdən istifadə etməklə, həmçinin vaxta qənaət yolu ilə sifarişlərini həyata keçirirlər, onlar ənənəvi xidməti vaxt itkisi hesab edir və bu üsulla işləyən kitabxanaların oxucusu olmurlar. Elmin inkişafı nəticəsində məhz belə oxucuların sayının artması kitabxana fəaliyyətinin genişləndirilməsi məsələsinin aktual olduğunu göstərir. Cəmiyyətin tərəqqi mənbəyi kimi inkişafına davam etməsi üçün kitabxananın öz fəaliyyətini genişləndirməsinə ciddi ehtiyac var ki, kitabxana xidmətlərindən istifadə edənlərin sayı artsın. Bu mənada kitabxana fəaliyyətinin genişləndirilməsi kitabxana xidmətlərinin faydalılığını artıran kurs kimi müəyyən edilə bilər. Bu, uzun sürən prosesdir və tam həyata keçirilməsi üçün bütün məsələlər əvvəlcədən və tam düşünülmüş şəkildə planlaşdırılmalı, proses mərhələli şəkildə həyata keçirilməlidir. Məsələn, ümumi maraqları olan oxucular üçün dərnəklər təşkil etmək olar. Kitabxananın daimi oxucuları üçün fondlara və kolleksiyalara ekskursiya təşkil etmək də məqsədəuyğundur, bu, onların fondlarla daha yaxından tanış olmalarına və kitabxanadan səmərəli istifadə etmələrinə yardımçı ola bilər. Festival və mədəni tədbirlər, kitab sərgiləri də insanları kitabxanaya cəlb etməkdə köməkçi vasitələrdən hesab olunur. Kitabxananın rəsmi internet saytının yaxşı tərtib edilməsi və mütəmadi olaraq yenilənməsi, həmçinin qəzet, jurnal və s. kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə təbliği bu istiqamətdə həyata keçiriləcək tədbirlər planının bir hissəsini təşkil edə bilər. İstənilən halda, hər bir təbliğat proqramının əsas məqsədi insanların istifadəsi üçün mövcud olan xidmətləri və resursları tanıtmaqla, kitabxananın təklif etdiyi resurslar haqqında ictimaiyyəti məlumatlandırmaq və kitabxanaya daha çox oxucu cəlb etməkdir. Hətta ən yaxşı xidmətlərə malik kitabxana belə düzgün təbliğ edilməsə, heç bir faydası olmayacaq. Kitabxananın təbliği üçün mənbə kimi mediadan başqa, təbliğatın digər yolları da var. Lakin cəmiyyətin dəyişən mədəniyyətinə, elmin inkişafına uyğun olaraq, bir neçə il əvvəl qüvvədə olan proqram müasir dövrə uyğun olmaya bilər. Buna görə də kitabxanalar fəaliyyətlərində bu amilləri nəzərə almalı və Elm-kitabxana-cəmiyyətin qarşılıqlı əlaqəsini əsas prioritet kimi qəbul etməlidirlər.

**Ədəbiyyat**


1. Müasir tipli kitabxana informasiya cəmiyyətinin atributudur/ M.Əhmədov // Azərbaycan.- 2006.-20 avqust .-№ 186.-S.3.
2. Научные библиотеки: гибель или развитие? / В.А. Глухов// «Библиотеки и научное сообщество: взаимодействие и взаимовлияние». Международная научная конференция «Румянцевские чтения – 2011» // Библиотековедение: научно-практический журнал.– Москва, 2001.– № 2. – с. 17-19.
3. Научные сообщества: роль журналов и мегажурналов открытого доступа в научной коммуникации / С. Уакелинг, В. Спези, Д. Фрай, К. Крисер, С. Пинфилд, П. Уиллетт // Библиосфера. – 2019. – № 1. – С. 3–9.
4. Проблемы адаптации научных библиотек к инновационным процессам в зарубежном библиотековедении/ П.С. Романов // Библиосфера . – 2010. – № 1. – С. 42-46.
5. Управление и эффективность в библиотековедении США / П. С. Романов // Румянцевские чтения – 2014: материалы международной научной конференции (15–16 апреля 2014).– Москва : Пашков дом, 2014. – Ч. 2. – С. 165–171.
6. *Хавкина Л. Б.* Книга и Библиотека. – СПб. : Изд-во РНБ, 2011. – Вып. 1–152 с.